Nazim

# Ömrün uzun olsun...

*İstedadlı şair övladı Orxansız qalan, ustad Adil Cəmilimizə.*

Yansanda vədəsiz düşən yarpağa,
Həyat taleyinə bir xəzan yazdı;
Övladı versən də, ana torpağa,
Bir oğul qəbrini, köksündə qazdın!

Yurdun bir əsgəri çıxdı sıradan,
Səni qoyub getdi bir oğul-qalan.
Ən varlı şairsən dərd-qəm sarıdan,
”Kədər sərvətini” artırdı balan.

Dilində səslənər nisgillə adı,
Dinər ürəyində bir övlad-canın.
Ömründə yaşayar bala muradı,
Ömrün uzun olsun... Torpağı sanı...

İnsan-Kəlbəcərsən,-yeriyən-,gəzən,
Ümid yerin yurda dönməyin olub.
Şuşa-Laçınındı sinəni əzən,
Ürəyinin gözü qan-yaşla dolub.

Bir köhnə kişisən babalar kimi,
Sənin böyüklüyün qətiyyətindi.
Qəlbdə yaşatmazsan qəzəbi, kini,
İnsan ucalığın-şəxsiyyətindi!

Bu dünya gözündə dumana dönüb,
”Can balam!”-kəlməsi donub dilində.
Dərdin sükut dilli amana dönüb,
Pir balan, nur balan gedib əlindən.

Kimsə bilməsə də, mən bir natiqəm,
Zəng edim, nə deyim, necə eyləyim?
Nə olub içimdə batan nitqimə,
Bəlkə...Sabah...Nəsə...Gecə söyləyim?!

Zəng edə bilmirəm, məni qınama,
Ürəyim sinəmdə hay qoparıbdı.
Demə ki, bu insan ”girib qınına”,
Dərman axtaranı...Dərd aparıbdı...

Qoymaram bir kimsə qandan danışa,
Dünyadan qanların qoxusu gəlir;
Dayanıb dönərəm bir baş daşına,
Fikrimə ölüm-qan, qorxusu gəlir!

Nisgillə oxşadım oğul-balanı,
Ürəyimin çatı sızladı, dindi.
Bu bir qərarıdı Allah-Talanın,
Hansı təsəllini, mən verim indi?!

Bir gözəl şairsən, alim qələmli,
Sən özün boyda bir ürəksən qardaş!
Bu dünya olsa da dərdli, ələmli,
Kövrək nəvələrə, gərəksən qardaş!

...Bağban toxum əkər,-bitər,-inanır,
Bəzən toxum heç də dərinə düşmür.
Dərdinin başına dönüm-dolanım,
Ayrı bir təsəlli, yerinə düşmür!!!

Ədalət.-2019.-20 iyun.-S.8.